# DTX-nin Mədəniyyət Mərkəzində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş elmi-praktik konfrans

Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyasının təşkilatçılığı ilə Xidmətin Mədəniyyət Mərkəzində "Azərbaycan təhlükəsizlik orqanlarının fəxri rəhbəri" adlı elmi-praktiki konfrans keçirilib.





DTX-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev və Xidmətin rəhbər əməkdaşları, Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini Fəzail İbrahimli, Milli Məclisin komitə sədrləri Ziyafət Əsgərov, Sadiq Qurbanov və digər deputatlar, təhlükəsizlik orqanlarının veteranları, xüsusi təyinatlı və mülki ali təhsil müəssisələrinin rəhbərləri və professor-müəllim heyətləri iştirak ediblər.

Konfrans Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsinin birdəqiqəlik sükutla yad olunması, Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Tədbiri açan DTX-nin rəisi general-polkovnik Əli Nağıyev Heydər Əliyevin mənalı ömrünə nəzər salaraq Ulu Öndərin Vətəni və xalqının rifahı yolunda misilsiz xidmətlərindən, bütün həyatı boyu milli maraqların təmin olunması naminə atdığı qətiyyətli addımlardan geniş söhbət açıb. Dahi şəxsiyyətin təhlükəsizlik orqanlarındakı fəaliyyəti ilə əlaqədar fikirlərini bölüşən general-polkovnik Əli Nağıyev Heydər Əliyevin bu qurumda şərəfli xidmət nümunələri yaratdığını, təhlükəsizlik təşkilatının milliləşdirilməsinin məhz onun adı ilə sıx bağlı olduğunu qeyd edib. Bildirilib ki, Heydər Əliyevin vəzifə pillələrində durmadan irəliləyərək, ilk azərbaycanlı kimi təhlükəsizlik orqanının rəhbəri təyin olunması və general-mayor rütbəsinə layiq görülməsi yalnız onun fitri istedadı, dərin analitik təfəkkürü və yüksək bacarıqları nəticəsində mümkün olub.

Xidmət rəisi vurğulayıb ki, daim Azərbaycanı müstəqil görmək arzusu ilə yaşayan və bütün dövrlərdə milli mənafelərin təminatçısı olan Heydər Əliyevin dövlətçilik strategiyasını müvəffəqiyyətlə davam etdirən Prezident İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasət güclü və qüdrətli Azərbaycanı parlaq gələcəyə, işıqlı sabahlara və yeni-yeni zəfərlərə doğru aparmaqdadır.

Qonaqlar Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr edilən videoçarxa baxıblar.

Sonra konfrans digər məruzəçilərin çıxışları ilə davam edib. Natiqlər belə tədbirlərin keçirilməsinin Heydər Əliyevin peşəkarlıq irsinin yaşadılması və təbliği baxımından böyük əhəmiyyət daşıdığını xüsusi qeyd edərək görkəmli dövlət xadiminin həyat yolundan bəhs ediblər. Vurğulanıb ki, Ulu Öndərin sovet dönəmində respublikaya rəhbərlik etdiyi vaxtlarda Azərbaycanın tərəqqisi və çiçəklənməsi, Sovet İttifaqında qabaqcıl mövqelərdə qərarlaşması Heydər Əliyevin yorulmaz səylərinin bəhrəsi idi. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xilaskarlıq missiyasını uğurla yerinə yetirən və ölkədə ictimai-siyasi sabitliyi bərqərar edərək Azərbaycanı davamlı inkişaf yoluna çıxaran Heydər Əliyev müasir dövlətimizin banisi və qurucusu olaraq adını tariximizə qızıl hərflərlə yazdırıb.

Tədbir iştirakçıların Mədəniyyət Mərkəzində Ümummilli Lider Heydər Əliyevin büstü qarşısında xatirə fotoşəklinin çəkilməsi ilə başa çatıb.

Azərbaycan.- 2023.-7 may.- S.6.